# Zumər surəsi; 27 (Qurani-Kərim insan ağlını, mühakiməni fövqəladə inkişaf etdirər. Quranı dərin-dərin düşünəcəyik.)

**Adnan Oktarın 11 may 2011 A9 Tv-dəki canlı söhbətindən**

**ADNAN OKTAR:** 27-ci ayə, Zumər surəsi. "**And olsun**," deyir Allah, and içir. **"Biz bu Quranda, bəlkə öyüd alıb-düşünərlər deyə, insanlar üçün hər bir nümunədən verdik."** Baxın; "bəlkə öyüd alıb, düşünərlər". İndi, bir öyüd alıb, bir də düşünəcək. Deməli, Quran beyini çox işlədən bir kitabdır, Quran beyin kitabı, ağıl kitabıdır. Quranı alıb belə dərindən düşünəcəyik. Quran insan zəkasını, insan ağlını da fövqəladə inkişaf etdirən bir kitabdır. Mühakiməni fövqəladə inkişaf etdirər. Çox güclü bir məntiqin inkişafına səbəb olar. Beyini çox sağlam hala gətirər və insanın çox ağıllı olmasını təmin edər. Lakin Quran ayələrini diqqətli, hər ayəsi diqqətlə oxuyub, diqqətlə təfəkkür edib, onun içindəki sirləri tapmağa çalışaraq. O zaman ağıl fövqəladə dərinlik qazanar. İnsanın ruhunda fövqəladə bir inkişaf olar. Zəkasında, anlayış gücündə də fövqəladə bir inkişaf olar. Quran beyin sağlamlığını da çox ciddi şəkildə müsbət inkişaf etdirən ən effektiv kitabdır, inşaAllah.

https://www.harunyahya.info/az/meqaleler/zumer-suresi-27-qurani-kerim-insan-aglini-muhakimeni-fovqelade-inkisaf-etdirer-qurani-derin-derin-du